

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 58 (23.470)

*16 aprel 2020-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## *Rəsmi xronika*

Aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib.

Dövlətimizin başçısı müşavirədə giriş nitqi söyləyib. Ölkə başçısı çıxışında bildirib ki, 2020-ci il uğurla başlamışdır. İlin əvvəlinin göstəriciləri deməyə əsas verir ki, Azərbaycanda islahatların davam etdirilməsi yaxşı nəticələrə gətirib çıxarır.

Azərbaycan Respublikasının Prezidenti dünyada yayılmış pandemiyaya qarşı həyata keçirilən qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində ölkədə vəziyyətin nəzarət altında olmasından, bütün sahələrdə islahatlar aparılmasının zəruriliyindən, beynəlxalq müstəvidə də uğurlu fəaliyyətdən, iqtisadi nailiyyətlərdən danışıb.

Müşavirədə Maliyyə naziri Samir Şərifov, Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Kənd Təsərrüfatı naziri İnam Kərimov çıxış ediblər.

Dövlətimizin başçısı müşavirəyə yekun vurub.



# Şərur rayonu sosial-iqtisadi inkişafın yeni mərhələsində

## *Rayonda geniş quruculuq işləri aparılır*

Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Şərur rayonunun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar var. Arzu edirəm ki, Şəruru daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz..."***

Muxtar respublikanın ən böyük yaşayış məntəqəsi olan Şərur rayonunda kompleks inkişaf təmin edilmişdir. Rayonda iqtisadiyyatın bütün sahələrinin inkişafı, yeni sənaye müəssisələrinin yaradılması, aqrar sahədə islahatların əhatə dairəsinin genişləndirilməsi əhali rifahını yüksəltmiş, məskunlaşma artmışdır. Aparılan genişmiqyaslı quruculuq işləri, sosial obyektlərin, inzibati binaların və yol infrastrukturunun tikilib istifadəyə verilməsi yaşayış məntəqələrinin simasını tamamilə dəyişmiş, Şərur şəhəri və kəndlər abad yaşayış məntəqələrinə çevrilmişlər. Bu il də rayon mərkəzində və kəndlərində quruculuq işləri davam etdirilir.

# Şərur şəhərində Mərasim evi və dini icma üçün iş otaqları istifadəyə verilmişdir

Şərur rayonunda xalqımızın qədim adət-ənənələrinin, milli və mənəvi dəyərlərinin qorunub yaşadılmasına, zənginləşdirilməsinə xüsusi diqqət yetirilir. Məscid və mərasim evlərinin inşası da görülən bu işlərin tərkib hissəsi kimi mühüm əhəmiyyətə malikdir.

Aprelin 12-də Şərur şəhərində Mərasim evi və dini icma üçün iş otaqları istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 3 mərtəbədən ibarət Mərasim evinin birinci mərtəbəsində dini icma sədrinin və müavininin otağı, kəbin otağı, 44 yerlik iclas zalı, kitabxana, təsərrüfat işçiləri üçün otaq və qazanxana vardır. İkinci mərtəbədə qadınlar üçün 168 yerlik mərasim zalı və mətbəx, üçüncü mərtəbədə isə kişilər üçün 168 yerlik mərasim zalı və mətbəx yerləşir.








Şərur rayon Dini İcmasının sədri Nəsib Novruzov minnətdarlıq edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasında dini-mənəvi dəyərlərin qorunmasına xüsusi diqqət yetirilir, dini-tarixi abidələr bərpa olunur, yeni məscid və mərasim evləri tikilir. Şərur şəhərində yeni mərasim evinin istifadəyə verilməsi sakinlər tərəfindən minnətdarlıqla qarşılanır. Bilirik ki, bütün bu tədbirlər rayon sakinlərinin rahatlığı üçündür. Söz veririk ki, qurulub yaradılanları qoruyacaq, gələcək nəsillərə ötürəcəyik. Nəsib Novruzov rayon sakinləri və dindarlar adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Muxtar respublikada mərasim evlərinin tikintisi geniş vüsət almışdır. Bu gün də Şərur şəhərində yeni mərasim evi istifadəyə verilir. Binada yas mərasimlərinin keçirilməsi ilə yanaşı, həm də rayon dini icması üçün lazımi şərait yaradılmışdır. Mərasim evlərinin tikintisi üçün iş adamları və sakinlər tərəfindən göstərilən təşəbbüs dövlət tərəfindən dəstəklənir, şərait yaradılır, köməklik göstərilir. Bütün bunlar da ölkəmizdəki inkişafın, sabitliyin və dövlət-xalq birliyinin nəticəsidir. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə olunmalı, dini dəyərlərimiz qorunub saxlanılmalıdır.

Ali Məclisin Sədri Mərasim evinin tikilməsinə təşəbbüs göstərən şəxslərə və bu işdə əməyi olanlara təşəkkür etmişdir.

Binada fərdi istilik sistemi quraşdırılmış, həyətdə abadlıq işləri aparılmış, müasir işıqlandırma və suvarma sistemi çəkilmişdir.

# Şərur şəhərində yeni avtovağzal inşa olunacaq

Muxtar respublikada nəqliyyat sisteminin təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlər görülür. Bu sahədə tədbirlər muxtar respublikanın bölgələrində də davam etdirilir, müasir standartlara cavab verən avtovağzallar tikilir, sərnişindaşıma xidməti müasir tələblər səviyyəsində qurulur.

Aprelin 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şərur şəhərində inşa olunacaq avtovağzalın layihəsinə və tikinti aparılacaq əraziyə baxmışdır.

*Ardı 2-ci səhifədə*






Məlumat verilmişdir ki, avtovağzal müasir layihə əsasında inşa olunacaq və tələbatı tam ödəyəcəkdir. İkimərtəbəli binada sərnişinlərin rahatlığı üçün lazımi şərait yaradılacaq, gözləmə zalı, iş və xidməti otaqlar, kassa, eyni zamanda mağaza, əczaxana və xidmət sahələri də istifadəyə veriləcəkdir. Ərazidə dayanacaqlar yaradılacaq, abadlıq işləri aparılacaq, yaşıllıqlar salınacaqdır.

Ali Məclisin Sədri tikinti işlərinə başlanılması barədə müvafiq tapşırıqlar vermişdir.

## “Çomaxtur” elektrik yarımstansiyası istifadəyə verilmişdir





Muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Alternativ və bərpa olunan enerji mənbələrindən düzgün istifadə olunur, yeni elektrik stansiyaları tikilərək istifadəyə verilir, istehsalın həcmi artırılır. Elektrik enerjisinin istehsalı ilə yanaşı, onun istehlakçılara etibarlı və dayanıqlı çatdırılması da diqqət mərkəzində saxlanılır, yeni elektrik yarımstansiyaları tikilir.

Aprelin 12-də Şərur şəhərində “Çomaxtur” yarımstansiyası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Bu gün dayanıqlı elektrik enejisi təminatı yaratmadan iqtisadiyyatın inkişafını təmin etmək mümkün deyil. Ona görə də muxtar respublikada elektrik enerjisi təminatı sahəsində mühüm işlər görülür, yeni günəş və su elektrik stansiyaları tikilir, yarımstansiyalar qurulur, elektrik xətləri çəkilir. Elektrik enerjisi istehsalı ilə yanaşı, onun əhaliyə dayanıqlı çatdırılması da əsas şərtdir. Hazırda muxtar respublikada istehsal olunan elektrik enerjisi yarımstansiyalar vasitəsilə istehlakçılara çatdırılır. “Çomaxtur” yarımstansiyası da 15 kəndi və Şərur şəhərinin bir hissəsini əhatə etməklə rayonda enerji tələbatının 18 faizini ödəyir. Muxtar respublika energetikləri tərəfindən yarımstansiyanın yenidən qurulması istehlakçıların keyfiyyətli elektrik enerjisi ilə təminatına imkan verəcəkdir. Eyni zamanda idarəetmə təkmilləşəcək, işçilərin təhlükəsizliyi təmin olunacaqdır.



Ali Məclisin Sədri muxtar respublika energetiklərinə təşəkkür etmiş, yarımstansiyanın istifadəyə verilməsi münasibətilə kollektivə təbriklərini çatdırmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev çıxış edərək demişdir ki, muxtar respublikada energetika sisteminin inkişafı sahəsində ardıcıl tədbirlər görülür, enerji təchizatının yaxşılaşdırılması və müasirləşdirilməsi diqqət mərkəzində saxlanılır. Yeni elektrik stansiyalarının istifadəyə verilməsinin və energetika təsərrüfatının müasir tələblər səviyyəsində qurulmasının nəticəsidir ki, bu gün muxtar respublikada daxili tələbat tamamilə yerli istehsal hesabına ödənilir, istehlakçılar dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin olunurlar. Muxtar respublikada energetika sisteminin inkişafına göstərilən qayğının davamı kimi Şərur rayonunda “Çomaxtur” yarımstansiyası istifadəyə verilir. Namiq Paşayev yaradılan şəraitə görə muxtar respublika energetikləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sonra yarımstansiyaya baxış olmuşdur.

Məlumat verilmişdir ki, yarımstansiya binasında idarəetmə mərkəzi, eləcə də 35 və 10 kilovoltluq paylayıcı qurğu otaqları yerləşir. Avadanlıqların normal iş prosesinə ölçü qurğuları vasitəsilə məsafədən nəzarət olunur.

Yarımstansiyada hər biri 6,3 meqavoltamper gücündə 2 ədəd 35/10 kilovoltluq transformator, 4 ədəd 36 kilovoltluq, 10 ədəd 12 kilovoltluq elegaz açarlı giriş-çıxış hücrələri, 1 sabit cərəyan mənbəyi, 2000 kilovat gücündə 10 kilovoltluq statik kondensator batareyası quraşdırılmışdır. Yenidənqurma işləri aparılarkən 500 metr uzunluğunda 35 kilovoltluq, 1,5 kilometr uzunluğunda isə 10 kilovoltluq yeni elektrik verilişi xətləri çəkilmişdir. Yarımstansiyada quraşdırma və sınaq-sazlama işləri yerli mütəxəssislər tərəfindən həyata keçirilmişdir. Yarımstansiyanın əhatə etdiyi yaşayış məntəqələri üzrə elektrik enerjisinə olan tələbat qış aylarında 2,1, yay aylarında isə 3,5 meqavat təşkil edir.

Ətrafda abadlıq işləri aparılmış, müasir işıqlandırma və suvarma sistemləri çəkilmişdir. Şərur Rayon Elektrik Şəbəkəsinə üzərində kran quraşdırılmış “Kamaz” markalı avtomobil alınmışdır.

## Rayonun 7 yaşayış məntəqəsini birləşdirən avtomobil yolu yenidən qurulur






Şərur rayonunun kəndlərində aparılan geniş quruculuq işləri yol infrastrukturunu da əhatə etmişdir. Bu il rayonun Xanlıqlar-Şərur şəhəri-Yengicə-Şəhriyar-Kürçülü-Kərimbəyli-Dəmirçi kənd avtomobil yolu yenidən qurulacaqdır.

Aprelin 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolda aparılan yenidənqurma işləri ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, yenidən qurulan avtomobil yolu Şərur rayonunun 7 yaşayış məntəqəsini əhatə edir. 21 kilometr uzunluğundakı yola asfalt-beton örtük salınacaqdır. İki hərəkət zolağından ibarət olacaq yolun eni 11 metrə qədər genişləndiriləcəkdir. Yolun üzərində 5 körpü tikiləcək, 44 su keçidi qoyulacaq, 10 kilometrə yaxın suaparıcı kanallar çəkiləcəkdir.

Ali Məclisin Sədri mühəndis-texniki tələblərə əməl olunması və tikinti işlərinin keyfiyyətlə aparılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Tarixi yaşadanları tarix də yaşadacaqdır

## *Yusif Küseyir oğlu türbəsi bərpa olunub*





Naxçıvan qədim, orta əsrlər və yeni dövr tariximizi özündə əks etdirən nadir memarlıq abidələri ilə zəngindir. Muxtar respublika ərazisindəki mağaralar, ilk insan məskənləri, möhtəşəm qalalar, qayaüstü rəsmlər, daş qoç heykəllər və türbələr xalqımızın qədim tarixindən soraq verir. Son illər tarixi abidələrin qorunması, tədqiqi, bərpası və tanıdılması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Ali Məclis Sədrinin tapşırığına əsasən Naxçıvan şəhərindəki Yusif Küseyir oğlu türbəsi də bərpa olunmuşdur.

Aprelin 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov türbədə aparılan bərpa işləri ilə maraqlanmışdır.



Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək demişdir ki, Naxçıvan memarlıq abidələri ilə çox zəngindir. Ali Məclis Sədrinin müvafiq Sərəncamı ilə muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələri pasportlaşdırılmış, 70-dən artıq abidə bərpa olunmuşdur. Bu abidələr içərisində Yusif Küseyir oğlu türbəsi öz orijinal quruluşuna görə xüsusi ilə diqqəti cəlb edir. Abidə qülləvarı türbələr sırasına aiddir. Muxtar respublikada tarixi-mədəni irsimizə göstərilən qayğının daha bir ifadəsi kimi Yusif Küseyir oğlu türbəsi də bərpa olunmuşdur. İsmayıl Hacıyev tarix və mədəniyyət abidələrinin bərpası, tədqiqi və təbliği sahəsində həyata keçirilən tədbirlərə görə muxtar respublika ziyalıları adından minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin ***"Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən diyardır"***, – fikrini xatırladaraq demişdir: Tariximizi yaşadan abidələrdən biri də 850 il bundan əvvəl memar Əcəmi Naxçıvani tərəfindən tikilmiş, el arasında isə "Atababa günbəzi" kimi tanınan Yusif Küseyir oğlu türbəsidir.

Ali Məclisin Sədri türbənin bərpaçılarına təşəkkürünü bildirərək demişdir: Tarixi abidələri qoruyub saxlamaq onu tikməkdən daha çətindir. Yusif Küseyir oğlu türbəsi tikildiyi dövrdən bu günə qədər qorunub saxlanılmışdır. Bərpadan sonra isə abidəyə ikinci həyat verilmişdir. Abidələrin pasportlaşdırılması, onların qorunması və bərpası vacib məsələdir. Çünki abidələr xalqımızın daş pasportudur. Tarixi abidələr xalqın neçə yüz il bundan əvvəl hansı mədəniyyətə malik olduğunu təsdiq edir. Ona görə də abidələr qorunmalı, ilkin görkəmi saxlanılmaqla bərpa olunmalı və gələcək nəsillərə çatdırılmalıdır.




"O şəxslər xoşbəxtdirlər ki, onlar əməllərinə və xidmətlərinə görə tarixdə yaşayırlar. Memar Əcəmi Naxçıvani yaratdığı abidə, Yusif Küseyir oğlu isə xalqımıza göstərdiyi xidmətlərlə tarixdə yaşayırlar", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, abidələrin bərpası və qorunub saxlanılması xalqın tarixinin yaşadılması deməkdir. Bu gün muxtar respublikada qədim, orta əsrlər və son dövrlərə aid abidələrimiz bərpa olunur. Lakin təəssüflə deməliyik ki, ötən əsrin 90-cı illərinin acı nəticələri tarixi abidələrimizə təsirsiz qalmamışdır. Həmin dövrdə anbar kimi istifadə olunan Yusif Küseyir oğlu türbəsinin memarlıq quruluşuna ciddi ziyan vurulmuşdu. Sonrakı dövrdə abidədə bəzi bərpa işləri aparıldı. Bu gün isə abidə əsaslı şəkildə bərpa olunaraq ikinci həyat verilmişdir. Muxtar respublika ərazisindəki digər abidələrimiz kimi, bu abidə də tədqiq olunmalı, abidə ilə bağlı materiallar toplanılaraq kitab halında nəşr edilməlidir. Çünki abidələrin bərpası ilə yanaşı, həm də onların öyrənilməsi qarşıda duran əsas vəzifədir. Tariximiz həm abidələrdə, həm də yazılı mənbələrdə – kitablarda yaşadılmalıdır.

Sonra abidəyə baxış olmuşdur. Tarixi abidələrin bərpası üzrə mütəxəssis, memar Arif Əzizov məlumat vermişdir ki, türbənin bərpasına 2019-cu ilin iyun ayında başlanılmış, ətrafı dəmir-beton istinad divarları ilə bərkidilmiş və kərpiclə üzlənmişdir. Türbənin xarici və daxili, həmçinin sərdabə divarlarının aşınmış hissələri, həndəsi və nəbati naxışlar ilkin forması saxlanılmaqla bərpa edilmişdir. Abidədə haşiyə, eləcə də qapı üzərindəki kitabə yazıları da bərpa olunmuş, açıq və qızılı rənglərlə boyanmışdır. Türbənin daxilindəki nəmliyin götürülməsi üçün günbəz hissədə və üst piramida örtüyündə nəfəsliklər açılmışdır.

Bildirilmişdir ki, Yusif Küseyir oğlu türbəsi yeraltı sərdabədən və yerüstü türbədən ibarətdir. Daxildən və xaricdən səkkizguşəli şəkildə ucaldılan türbə piramidaşəkilli günbəzlə örtülmüşdür. Türbə ölkəmizin qülləvarı türbələri içərisində üst piramida örtüyü olduğu kimi bu günə qədər qalan yeganə abidədir. Giriş qapısının baş tərəfindəki kitabədə türbənin hicri təqvimi ilə 557-ci il, yəni 1162-ci ildə Yusif Küseyir oğlunun xatirəsinə inşa edildiyi göstərilmişdir. Abidənin qurşağında "Qurani-Kərim"in "Al-i İmran" surəsindən 15-17-ci ayələr, tağı üzərində isə "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir" sözləri yazılmışdır.

Abidənin ətrafı abadlaşdırılmış, müasir işıqlandırma sistemi quraşdırılmışdır.

# Ordubad şəhərindəki qədim Cümə məscidi bərpa olunacaq





Muxtar respublikada mənəvi dəyərlərimizin qorunub yaşadılması istiqamətində həyata keçirilən tədbirlər sırasında dini abidələrin bərpası xüsusi yer tutur. Qədim ziyarətgahlar və məscidlər bərpa olunaraq dindarların istifadəsinə verilir.

Aprelin 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ordubad şəhərindəki qədim Cümə məscidinin bərpa layihəsinə baxmışdır.

Məlumat verilmişdir ki, XVII-XVIII əsrlərə aid olan məscid memarlıq quruluşu saxlanılmaqla bərpa olunacaq, dindarlar üçün lazımi ibadət şəraiti yaradılacaqdır.

Ali Məclisin Sədri Cümə məscidində bərpa işlərinə başlanılması barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# İşğaldan azad edilən ərazilər əkin dövriyyəsinə qatılır





Ərzaq, enerji və müdafiə təhlükəsizliyinin təmin edilməsi istiqamətində ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının uğurla davam etdirilməsinin nəticəsidir ki, muxtar respublikamız gündən-günə daha da inkişaf edib çiçəklənir. Xüsusilə qeyd etmək olar ki, Naxçıvanda həyata keçirilən ordu quruculuğu və müdafiənin təşkili nümunə gücündədir. Bunu təsdiq edən ən mühüm faktlardan biri də 2018-ci ilin uğurlu hərbi əməliyyatlarıdır. Həmin vaxt Günnüt qələbəsi ilə 11 min hektardan artıq ərazini işğaldan azad edən Əlahiddə Ümumqoşun Ordu Sədərək istiqamətində Şərab zavodunu və ətraf əraziləri nəzarətə götürüb.

Xatırladaq ki, ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev muxtar respublikaya səfəri çərçivəsində Ali Məclisin Sədri ilə birlikdə Sədərək rayonunda ordumuzun ön müdafiə mövqelərinə gələrək burada xidmətin təşkili ilə maraqlanmışdır. Verilən tapşırıq və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində ordumuz öz müdafiə mövqelərini xeyli yaxşılaşdırmış, ərazilərin etibarlı qorunması əhalinin də rahat yaşayışına və lazımi təsərrüfat işlərini yerinə yetirməsinə stimul vermişdir. Uğurlu hərbi əməliyyatlar nəticəsində ordumuzun nəzarətinə keçən ərazilərdə ötən dövrdə geniş mühəndis-istehkam işləri görülmüş, müdafiə məqsədilə süni təpəciklər yaradılmış, möhkəm müdafiə sistemi qurulmuşdur. Həmçinin Əlahiddə Ümumqoşun Ordunun mühəndis-istehkam bölmələrinin şəxsi heyətinin və mühəndis texnikasının cəlb edilməsi ilə ərazinin minadan təmizləmə işlərinə başlanılmışdır. Mühəndis-istehkam işlərinin möhkəmləndirilməsi insanların rahat şəkildə buraya gəlib-getmələrinə və təsərrüfat işləri ilə məşğul olmalarına şərait yaratmışdır. Nəticədə, bu gün Sədərək istiqamətindəki Şərab zavodunun ətrafındakı münbit torpaqlar bu ildən etibarən əkin dövriyyəsinə qatılıb. Hazırda buradakı 73 hektar sahədə qarğıdalı əkininə başlanılıb. Bu məqsədlə yüksəkkeyfiyyətli, yerli şəraitə uyğun toxum sortları alınaraq ziyanvericilərə qarşı kimyəvi dərmanlarla dərmanlanıb. Əkin işləri rayonun mexanizatorları və sakinlər tərəfindən həyata keçirilir ki, bu da bölgədə yaşayanların maddi rifahının yüksəlməsinə xidmət edir. Həmçinin əkilən məhsuldar torpaqların suvarılması üçün müasir suvarma qurğuları da işlək vəziyyətə gətirilib, 3 artezian quyusu bərpa olunub. Əraziyə yeni yol və elektrik xətləri çəkilib.

Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması Sədərək rayon sakinlərini də sevindirir. Rayonda aqrar sahənin inkişafı kənd təsərrüfatı ilə məşğul olan insanlara stimul verir. Bütün bunlar, ümumilikdə, muxtar respublikada ərzaq və müdafiə təhlükəsizliyi təminatının göstəricisidir.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Nazirlər Kabineti 2020-ci ilin 4 aprel tarixində "Naxçıvan Muxtar Respublikasında əlavə dəyər vergisindən azad olunan kənd təsərrüfatı texnikalarının ehtiyat hissələrinin Siyahısı"nın təsdiq edilməsi haqqında", 10 aprel tarixində isə "Naxçıvan Muxtar Respublikasında Koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydası"nın təsdiq edilməsi haqqında" qərarlar qəbul etmişdir.

Nazirlər Kabinetinin 14 aprel tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasında tibbi-iqtisadi ekspertizanın aparılması Qaydası", "Naxçıvan Muxtar Respublikasında tibbi xidmətin keyfiyyətinin ekspertizasının aparılması Qaydası", "Naxçıvan Muxtar Respublikasında sığortaolunanların ilkin səhiyyə xidməti üzrə dövlət tibb müəssisəsinə təhkimolunma Qaydası" təsdiq edilmişdir. Sonuncu Qaydaya əsasən tibb müəssisəsinə təhkimolunma və ailə həkiminin (sahə həkimi – terapevtin, sahə həkimi – pediatrın) seçimi sığortaolunanın yaşadığı ərazi üzrə fəaliyyət göstərən tibb müəssisəsinə kağız üzərində və ya elektron formada təqdim etdiyi ərizəsi əsasında aparılır. Sığortaolunan tibb müəssisəsinə təhkim olunmaq üçün tibb müəssisəsinə verdiyi ərizə ilə şəxsiyyətini təsdiq edən sənədi və yaşadığı ünvan üzrə qeydiyyata dair sənədi təqdim etməlidir.

Nazirlər Kabineti eyni tarixdə "İcbari tibbi sığorta şəhadətnaməsi"nin Nümunəvi forması"nın təsdiq edilməsi haqqında" və "Tibbi xidmətlərin göstərilməsi haqqında Müqavilə"nin Nümunəvi forması"nın təsdiq edilməsi barədə" qərarlar qəbul etmişdir. Birinci qərara görə sığortaolunan icbari tibbi sığorta şəhadətnaməsini real vaxt rejimində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin məlumat bazasında mövcud aşkaretmə vasitələrindən istifadə etməklə "icbari tibbi sığorta şəhadətnaməsinin sığortaolunan tərəfindən əldə edilməsi" xidmətini seçərək, icbari tibbi sığorta şəhadətnaməsini əldə edə bilər.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar.nakhchivan.az*) tanış olmaq mümkündür.

## Muxtar respublikanın gömrük orqanları tərəfindən saxlanılmış mallar hərbi liseyə təhvil verilib



Gömrük orqanları tərəfindən saxlanılmış ümumi çəkisi 3289 kiloqram olan müxtəlif ərzaq məhsulları aktlaşdırılaraq Heydər Əliyev adına Hərbi Liseyə təhvil verilib. Bu münasibətlə keçirilən tədbirdə vurğulanıb ki, bu gün Azərbaycan Ordusu, o cümlədən hərbi təhsil müəssisələri dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunub.

Kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə Heydər Əliyev adına Hərbi Liseyə təhvil verilən mallar 754 kiloqram düyü, 442 kiloqram qənd, 416 kiloqram qarabaşaq, 304 kiloqram xurma, 234 kiloqram lobya, 234 kiloqram noxud, 234 kiloqram yaşıl noxud, 234 kiloqram məkə, 234 kiloqram mərcimək, 117 kiloqram çay, 80 kiloqram fıstıq, 6 kiloqram ədviyyatdan ibarət olub.

Hərbi liseyin zabiti Hikmət Hacıyev və kursantlardan Tapdıq Abbasov və Əhməd Həsənov göstərilən qayğıya görə dövlətimizə minnətdarlıq edib, belə tədbirlərin şəxsi heyətdə böyük ruh yüksəkliyi yaratdığını vurğulayıblar.

**Rahil TAHİRLİ**

# Naxçıvan dünya əhəmiyyətli abidələrlə zəngin bir diyardır

*Qədim tarixə malik Naxçıvan diyarı həm yerüstü, həm də yeraltı abidələrlə zəngindir. Onların milli dəyərlərimiz kimi qorunmasının vacibliyini qeyd edən ümummilli liderimiz Heydər Əliyev bu zənginliyi lakonik şəkildə belə qiymətləndirmişdir*: ***"Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır".*** *Həmin abidələrin ortaya çıxarılması və mühafizə altına alınması sahəsində mühüm tədbirlər müstəqilliyimizin qazanılması və siyasi sabitliyin təmin olunmasından sonra həyata keçirilməyə başlamışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bütün ölkə miqyasında həyata keçirilən mühüm qərar və sərəncamlar nəticəsində son dövrlərdə bu sahədə görülən işlər daha intensiv xarakter almışdır.*




Naxçıvan Muxtar Respublikasında son 25 ildə bu sahədə daha genişmiqyaslı işlər aparılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamından sonra bu abidələrin sayı, statusu dəqiqləşdirilmişdir. Təkcə 2006-2007-ci illər ərzində 1162 abidə pasportlaşdırılmaqla qoruma altına alınmışdır. Daha sonralar qeydə alınanların da bu siyahıya əlavə edilməsi nəticəsində sayı 1200-dən çox olan abidələrdən 57-si dünya, 495-i ölkə, 665-i isə yerli əhəmiyyətli statusa malikdir.

Naxçıvanın dünya əhəmiyyətli abidələrini daha geniş ictimaiyyətə, xüsusilə məktəblilərə tanıtmaq, tariximizin beynəlxalq miqyasda təbliğ olunmasında onların əhəmiyyətini diqqətə çatdırmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və AMEA Naxçıvan Bölməsinin birgə işi olan "Sabahın tədqiqatçıları" proqramı çərçivəsində yeni layihə üzərində işləməyi qərara aldıq və maraqlı nəticələr əldə edildi. Bu nəticələrdən biri Naxçıvanın dünya əhəmiyyətli abidələrinin xəritəsinin hazırlanmasıdır. Xəritədə abidələrin bütün rayonlar üzrə say nisbəti əks olunmuşdur ki, bu da diyarımızın hər bir guşəsinin tarixin ən dərin qatlarına işıq salmaq baxımından qiymətli olduğunu əks etdirir. Onlardan 3-ü Sədərək, 16-sı Şərur, 9-u Kəngərli, 5-i Babək, 6-sı Şahbuz, 7-si Culfa, 4-ü Ordubad rayonlarının, 7-si isə Naxçıvan şəhərinin payına düşür. Bu faktın özü Naxçıvan diyarını "abidələr muzeyi" adlandırmağa əsas verir.

Həmin abidələrin üstünlüyü onların yalnız Azərbaycanın deyil, eyni zamanda dünya tarixinin öyrənilməsində xüsusi dəyərə malik olmalarıdır. Bu da onların iki mühüm əhəmiyyətini özündə ehtiva edir. Birinci məqam abidələrin dünyəvi maraq obyektinə çevrilməsi nəticəsində çoxsaylı turist axınına stimul verməsi ilə bağlıdır. İkincisi isə belə tarixi abidələrin Qoca Şərqin tarixini və mədəniyyətini böyük maraqla öyrənməyə çalışan əcnəbi tədqiqatçıların diqqətini cəlb etmələridir. Bu səbəbdəndir ki, XXI yüzilliyin ilk illərindən başlayaraq Naxçıvanda yerli ekspedisiyalarla yanaşı, beynəlxalq ekspedisiyalar da fəaliyyət göstərir, dünyanın müxtəlif ölkələrindən bu diyarın nadir tarixi-memarlıq nümunələrini, arxeoloji abidələrini tədqiq etmək üçün gələn elm adamları tariximizlə bağlı obyektiv həqiqətləri öyrəndikdən sonra dəyərli irsimizə göz dikən bədxah qonşularımızın iddialarının əsassız olduğunu təsdiq edirlər.

Naxçıvanın dünya əhəmiyyətli abidələrinin xəritəsinin hazırlanmasının digər mühüm əhəmiyyəti abidələrin xarakterinin müəyyənləşdirilməsidir. Belə ki, onlardan 49-u arxeoloji, 1-i monumental, 7-si isə memarlıq abidəsidir. Başqa sözlə desək, bu abidələr toplusu nəhəng bir aysberqə bənzəyir, hansı ki ilk baxışdan az hissəsi görünən yerüstü abidələrlə təmsil olunsa da, çox hissəsi yeraltı xarakterli olub yalnız arxeoloji qazıntılar nəticəsində torpağın dərin qatlarından üzə çıxarılmışdır. Həmin tarixi abidələrin dünya miqyaslı əhəmiyyətini anlayan onlarla əcnəbi arxeoloq buraya üz tutmuş və uzunmüddətli tədqiqatlar aparmışlar. Oğlanqala abidəsində Azərbaycan-Amerika beynəlxalq arxeoloji ekspedisiyası, Ovçular təpəsi (2006-2013), I Kültəpə (2012-2018), Duzdağ abidələrində Azərbaycan-Fransa beynəlxalq arxeoloji ekspedisiyası uzunmüddətli tədqiqatlar aparmışlar. Belə tədqiqatlardan bəziləri hazırda davam etdirilir.

Bu abidələrin hər biri dünya tarixinə mühüm töhfə olan qədim mədəniyyətlərin qızıl açarına çevrilmişdir. Qazma mağarası Mustye, I Kültəpə yaşayış yeri Neolit, Ovçular təpəsi Eneolit, Gəmiqaya, I Maxta, Ərəbyengicə, Şortəpə kimi onlarla abidə Kür-Araz, II Kültəpə, Şahtaxtı Boyalı qablar, həmçinin İlkin şəhər, Oğlanqala Dəmir dövrü, Möminə xatın, Yusif Küseyir oğlu, Qarabağlar, Gülüstan türbələri isə türk-islam mədəniyyətləri kimi dünya miqyasında mühüm əhəmiyyət daşıyan sivilizasiyaların ortaya çıxarılmasına əvəzolunmaz töhfələr vermişlər.

*Ümumilikdə, bəşəriyyətin keçdiyi bütün inkişaf dövrlərinə işıq tutan bu qiymətli abidələrin ən mühüm cəhətlərindən biri Azərbaycanın, o cümlədən onun ayrılmaz hissəsi olan Naxçıvan diyarının tarixin bütün mərhələlərində insanların yaşaması üçün ən qiymətli məkan olduğunu göstərməsidir. Digər cəhəti isə bu abidələrin lap qədimlərdən başlayaraq sonrakı bütün mərhələlərə keçmiş və genetik yaddaş vasitəsilə günümüzədək gəlib çatmış ümumi elementləri əks etdirməsidir ki, bu da onları yaradanların indi də bu torpaqlarda yaşayan Azərbaycan-türk xalqının əcdadları olduğunu təsdiq edir. Bu baxımdan qədim və zəngin tariximizin sübutları olan bu abidələr bizim milli-mənəvi dəyərlərimiz kimi qiymətlidir, onları qorumaq və təbliğ etmək hər birimizin mənəvi borcudur.*

**Zeynəb QULİYEVA**
***tarix üzrə fəlsəfə doktoru, dosent***

**Lamiyə Hacıyeva, Aişə Əsgərova**
***Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 305